# Müstəqillik dövrü

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir.

Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi daxili və xarici təhdidlər, xalqımızın illər boyu həsrətində olduğu müstəqilliyi itirmək təhlükəsi bir daha sübut etdi ki, müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək onu əldə etmək qədər çətindir.

Azərbaycanın müstəqillik dövrünün xarici siyasətini 3 mərhələyə bölmək olar. Birinci mərhələ müstəqilliyin ilk illərini əhatə edir və Azərbaycanın dünya dövlətləri və əsas beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması dövrü kimi xarakterizə edilir. İkinci mərhələ 1993-2003-cü illəri əhatə edir. Bu mərhələ müstəqil xarici siyasətin baza prinsiplərinin formalaşdırılması və beynəlxalq əlaqələrin daha da genişlənməsi dövrüdür. Üçüncü – hazırkı mərhələ isə Azərbaycanı Cənubi Qafqazda lider dövlətə və beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa çevirən xarici siyasi kursunun yüksəliş dövrüdür.

Müstəqilliyin ilk illərində Azərbaycan çox mürəkkəb və çətin dövr yaşayırdı. Bir tərəfdən, Ermənistan torpaqlarımızı işğal edirdi, digər tərəfdən isə keçmiş sistemin çökməsi ilə əlaqədar iqtisadiyyat iflic vəziyyətinə düşmüş, hakimiyyət uğrunda mübarizə nəticəsində ölkədə daxili sabitlik pozulmuşdu. Eyni zamanda, beynəlxalq aləmə də Azərbaycanla bağlı həqiqətləri çatdırmaq çətin idi. Yüz ildən artıq bir müddətdə bütün dünyada mütəşəkkil təşkilatlanmış erməni diasporu və onların əsas havadarları olan erməni lobbisi tərəfindən Azərbaycan qlobal müstəvidə informasiya blokadasına alınmışdı. Beynəlxalq aləmdə Azərbaycan haqqında dezinformasiya yayılırdı. Müstəqilliyin ilk illərində xarici siyasətimiz qarşısında dayanan əsas maneə, bir tərəfdən erməni diasporunun təzyiqi və davam etməkdə olan erməni işğalı idisə, digər tərəfdən həmin dövr hakimiyyətdə olan şəxslərin səriştəsiz və qeyri-peşəkar fəaliyyəti idi. Həmin vaxt aparılan xarici siyasət kortəbii və sistemsiz xarakter daşıdığından, Azərbaycanın yerləşdiyi geosiyasi məkanın xüsusiyyətləri nəzərə alınmır, aktual məsələlərə konseptual yanaşılmırdı. Xarici siyasətdə konseptual yanaşmanın olmaması, utopik, reallıqdan kənar hədəflər Azərbaycanın bir sıra ölkələrlə, xüsusən qonşu ölkələrlə münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdu. Nəticədə Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuş, Rusiya və İran kimi qonşu dövlətlərlə münasibətləri kəskinləşmiş, erməni lobbisinin səyləri hesabına isə dünya informasiya məkanında blokadaya alınmışdı. Buna görə müstəqil Azərbaycanın xarici siyasətində birinci mərhələni itirilmiş illər hesab etmək olar.

Xarici siyasətin əsas prinsip və istiqamətlərinin formalaşma mərhələsi, Azərbaycan Respublikasının müasir xarici siyasət strategiyasının fundamental prinsip və istiqamətlərinin formalaşdırılması böyük dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlamışdır. Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət strategiyası müstəqil Azərbaycanın qurtuluşuna, Ermənistanın hərbi təcavüzünün qarşısının alınmasına, ərazi bütövlüyünün bərpasına və gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsinə yönəlmişdi.

Azərbaycan Respublikasının milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun işlənib hazırlanması və gerçəkləşdirilməsi bütövlükdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun güclü dövlətçilik təfəkkürü Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin düzgün qurulmasına imkan yaratmışdı.


“Əsrin müqaviləsi”nin imzalanması mərasimi
20.09.1994

Azərbaycan xalqının mənafeyi əsasında müəyyən olunan və milli maraqlardan qaynaqlanan yeni xarici siyasət strategiyası diplomatiyanın təməl prinsiplərinə xas şəkildə ölkəmiz ətrafında xoş mühitin formalaşmasına, ölkədaxili siyasi-iqtisadi və sosial məsələlərin həlli üçün xarici təsirlərin neqativ yükünü neytrallaşdırmağa, qonşu dövlətlərlə münasibətlərin normallaşmasına, xarici siyasət coğrafiyasının genişlənməsinə və “Əsrin müqaviləsi”nin timsalında uğurlu enerji siyasətinin həyata keçirilməsinə şərait yaratdı.

Aparılan xarici siyasət ölkəmizin beynəlxalq aləmdə mövqeyini tamamilə dəyişdi. İlkin mərhələdə Azərbaycanın beynəlxalq müstəvidə təcrid vəziyyətindən çıxarılması, tarazlaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi, dünya iqtisadiyyatına inteqrasiya, iqtisadi potensialın ölkənin xarici siyasət mövqelərinin gücləndirilməsinə yönəldilməsi, dünya azərbaycanlılarının təşkilatlanıb mütəşəkkil fəaliyyət göstərməsi, sonrakı mərhələdə isə regionun iqtisadi mərkəzinə çevrilməsi bu strategiyanın konseptual əsaslarını təşkil edirdi. Balanslaşdırılmış xarici siyasət, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu münasibətlər, etibarlı tərəfdaşlıq və milli maraqlar əsasında müstəqil siyasət prinsiplərinə söykənən praqmatik siyasi kurs Heydər Əliyev dühasının müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyasına gətirdiyi amillərdir.


Heydər Əliyev BMT BMT Baş Assambleyasının
49-cu sessiyasında çıxış edərkən
Nyu-York. 29.09.1994

Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu daxili və xarici siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün də davam etdirilir. Dövlətimizin başçısının yürütdüyü mahir xarici siyasət nəticəsində beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi ölkəmizin beynəlxalq səviyyədə mövqeyi möhkəmlənir və nüfuzu artır, qlobal və regional proseslərə müsbət təsir imkanları güclənir, milli maraqlarımız qorunur və həyata keçirilir.

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycan Respublikasının xarici siyasətində milli maraqlar əsasında müstəqil siyasət kursu olaraq məhək daşı rolunu oynayır. Qloballaşma prosesinin bu qədər dərininə inkişaf etdiyi müasir dünyada müstəqil xarici siyasət həyata keçirən dövlətlərin sayı heç də çox deyil. Digər tərəfdən isə ölkəmizin yerləşdiyi regionun geosiyasi əhəmiyyəti bu seçimi daha da çətinləşdirir. Qafqaz regionu tarix boyu daim geosiyasi cəhətdən olduqca həssas, əbədi mübarizələr meydanı olmuşdur. Müxtəlif sivilizasiyaların, mədəniyyətlərin, dinlərin təmsilçilərinin bu regionda

uzun əsrlər boyu mövcud olması da siyasi proseslərə öz təsirini göstərmişdir. Qlobal və regional güc mərkəzləri daim Qafqazı öz təsir dairələrində saxlamaq istəmişlər. Geosiyasi cəhətdən bu qədər həssas regionda milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış siyasət yeritmək olduqca çətindir. Məhz müstəqil və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanı Qafqazda geosiyasi çəkisinə görə fərqləndirir.

Azərbaycan öz xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Bu prinsipləri rəhbər tutaraq və uzunmüddətli milli mənafelərdən çıxış edərək, Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin, ilk növbədə ona qarşı Ermənistan Respublikası tərəfindən edilmiş təcavüzün aradan qaldırılması kimi həyati əhəmiyyətli başlıca məqsədə xidmət edir. Regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Qloballaşan müasir dünyada Azərbaycan xalqının maraqlarının daha səmərəli müdafiəsi naminə ölkə iqtisadiyyatının inkişafı üçün müxtəlif layihələrə xarici sərmayələrin cəlb edilməsi də Azərbaycanın xarici siyasətində müstəsna əhəmiyyət kəsb edir. Demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub inkişaf etdirilməsi üzrə ümumi məqsədi mümkün qədər tam şəkildə həyata keçirmək əzmindədir.

Azərbaycan xarici siyasətinin başlıca **prioritetləri** bunlardır:

**Dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi.** Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək üçün çoxsaylı qurbanlar verib və illər boyu bu müstəqilliyin intizarında olub. Ona görə də Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi və onun gələcək nəsillərə ərməğan edilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Azərbaycan suveren bərabərlik prinsipindən çıxış edərək digər dövlətlərin suverenliyinə hörmətlə yanaşır, daxili işlərə qarışmır və ölkəmizə münasibətdə də bu cür yanaşmanı tələb edir.



İlham Əliyev BMT Baş Assambleyasının
72-ci sessiyasında çıxış edərkən
Nyu-York. 20.04.2017

**Ermənistanın hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması, regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması.** 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edərək Azərbaycana qarşı gücdən istifadə edilməsini və onun torpaqlarının işğal olunmasını pisləyib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətini bir daha ifadə edib və Dağlıq Qarabağ regionunun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq

edərək, işğal olunmuş ərazilərdən bütün işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib.

Təhlükəsizlik Şurasının sədri tərəfindən 1992-1995-ci illər arasında qəbul edilmiş çoxsaylı bəyanatlarda da bu kimi ciddi məqamlar öz əksini tapıb. Çox təəssüf ki, Təhlükəsizlik Şurasının ilk növbədə işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması kimi qəti tələbləri hələ də icra olunmayıb və ATƏT çərçivəsində 20 ildən artıq davam edən vasitəçilik səyləri hələ də nəticə verməyib.

Xoş niyyətlə danışıqlar aparmaq əvəzinə, Ermənistan münaqişənin sülh yolu ilə həllinə yönəlik bütün cəhdləri açıq şəkildə pozur. BMT Təhlükəsizlik Şurasının tələblərinə tamamilə məhəl qoymayan və beynəlxalq hüququ kobud şəkildə pozan Ermənistan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edir, zor gücünə məcburi köçkünə çevrilmiş yüz minlərlə azərbaycanlının öz doğma yurd-yuvalarına geri qayıtmasının qarşısını alır və işğal olunmuş ərazilərin fiziki, demoqrafik və mədəni xarakterini dəyişdirməklə mövcud status-kvonu daha da gücləndirməyə çalışır. Bu narahatlıq doğuran faktlar ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən bir daha təsdiq edilib.

Azərbaycan danışıqların substantiv əsaslarla davam etdirilməsinin tərəfdarı olduğunu açıq şəkildə bildirib. Substantiv danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin dövlət başçıları səviyyəsində qəbuledilməz və qeyri-davamlı hesab etdikləri status-kvonun dəyişdirilməsi və Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnməlidir. Lakin Ermənistan yenə də təxribatçı əməlləri ilə danışıqlar prosesini pozmağa çalışır.

Möhkəm və davamlı həllə nail olmağın və iki qonşu dövlət arasında sivil münasibətlər qurmağın yeganə yolu Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi və qaçqın və məcburi köçkünlərin ayrılmaz hüquqlarına riayət edərək onların öz doğma yurdlarına qayıtmasının təmin olunmasıdır.

2018-ci il iyulun 11-də Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair imzalanmış sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də öz əksini tapmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək və hörmət ifadə olunmuşdur.

2018-ci ilin iyul ayında NATO-nun Brüssel zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir.

Dağlıq Qarabağın hər iki icması arasında sülh, razılaşma və birgə yaşama istiqamətində səylərin davam etdirilməsi həyati əhəmiyyət kəsb edir. Biz xüsusi diqqət ayrılmalı olan bu məsələləri bütöv barışıq prosesinin vacib aspektləri kimi nəzərdən keçirilir.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Prezident İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyası qəti və prinsipial şəkildə davam etdirilir.

**Beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi.** Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün çoxqütblü, beynəlxalq hüququn norma və prinsiplərinə və qanunun aliliyinə əsaslanan beynəlxalq münasibətlər sisteminin qurulması naminə səy göstərir.

Azərbaycan, həmçinin nizamnamə əsaslı beynəlxalq siyasi-iqtisadi təsisatların rolunun gücləndirilməsi və effektivliyinin artırılması, xüsusilə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının islahı, Şuranın mandatı əsasında sülhməramlı əməliyyatlarda iştirak, qlobal səviyyədə sivilizasiyalar və mədəniyyətlərarası dialoqun

təşviq edilməsi, davamlı inkişaf məqsədlərinin icrasına töhfə verilməsi, qabaqcıl təcrübə mübadiləsi və humanitar yardımlar vasitəsilə beynəlxalq sistemin möhkəmlənməsinə öz dəstəyini verir.

**İkitərəfli əlaqələrin inkişaf etdirilməsi.** Azərbaycanın dünya ölkələri ilə ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi xarici siyasətin prioritet vəzifəsi kimi qarşıda durur. Azərbaycanın 2012-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ölkəmizin dünya ölkələri ilə uğurlu ikitərəfli əlaqələrə malik olmasının göstəricisidir. İkitərəfli əlaqələrin inkişaf etdirilməsində qonşu dövlətlərlə hərtərəfli əməkdaşlıq prioritet istiqamətlərdən biridir. Ermənistan istisna olmaqla, bu gün bütün qonşu dövlətlərlə Azərbaycanın ikitərəfli siyasi, iqtisadi, humanitar və digər əlaqələri ardıcıl surətdə inkişaf edir. Qonşu dövlətlərlə ikitərəfli əməkdaşlıq regional əməkdaşlıq mexanizmi olaraq üçtərəfli formatlarda da davam etdirilir.

Mərkəzi Asiya, MDB ölkələri, ərəb-islam dünyası, Cənub-Şərqi Avropa və Avropa İttifaqına üzv dövlətlər, Asiya ölkələri, Şimali və Cənubi Amerika və Afrika qitəsi ölkələri ilə Azərbaycanın əlaqələri qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edir. Bu xüsusda, Azərbaycanın MDB və İƏT-ə üzvlüyü, Avropa İttifaqı ilə institusional əlaqələr, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, Amerika Dövlətləri Təşkilatı yanında müşahidəçi statusu, “Asiyanın ürəyi - İstanbul prosesi”ndə fəal iştirakı, Şanxay Əməkdaşlıq Təşkilatının Dialoq Tərəfdaşı statusu üzv dövlətlərlə ikitərəfli əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır. Avropa İttifaqı ilə strateji tərəfdaşlığa dair Sazişin imzalanması bu mötəbər qurumla əlaqələrin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına imkan yaradacaq.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə Azərbaycanın diplomatik təmsilçiliyinin coğrafiyası genişlənir. Son olaraq Azərbaycan Respublikasının Livan Respublikasında, Əlcəzair Xalq Demokratik Respublikasında səfirliyi və İraq Respublikasında diplomatik nümayəndəliyi fəaliyyətə başlayıb.

**Çoxtərəfli diplomatiyanın inkişaf etdirilməsi.** Çoxtərəfli diplomatiyanın inkişaf etdirilməsi prosesində Azərbaycan universal beynəlxalq təşkilat kimi BMT və onun ixtisaslaşmış təsisatları ilə əməkdaşlığa, BMT-nin ali orqanları olan Təhlükəsizlik Şurası və Baş Assambleyanın dövrün islah edilməsi və effektivliyinin artırılmasına xüsusi önəm verir.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə öz mühüm töhfəsini verdi. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə BMT Təhlükəsizlik Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında birgə iclas keçirildi.

2016-cı ilin iyun ayında Azərbaycan BMT Baş Assambleyasında keçirilmiş səsvermədə iştirak edən 184 üzv dövlətdən 176-nın səsini qazanmaqla 2017-2019-cu illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçildi.

BMT Baş Assambleyasından sonra 120 dövlətin iştirak etdiyi Qoşulmama Hərəkatı ən böyük beynəlxalq platformadır. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Qoşulmama Hərəkatı yarandığı tarixdən bəri beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsində əsaslı rol oynayır. Mövcud olduğu 50 ilə yaxın müddət ərzində Hərəkata üzv dövlətlər ortaq prinsip və dəyərləri qoruyub saxlayıb və qarşılıqlı əməkdaşlığa gətirib çıxaran fəaliyyət üçün ortaq zəmin yaratmaq bacarığı nümayiş etdirib.

Qoşulmama Hərəkatının üzvü olan dövlətlərin xarici işlər nazirlərinin aralıq konfransı 2018-ci il 3-6 aprel tarixlərində Bakıda keçirilmiş və konfransın nəticəsi olaraq "Bakı Bəyannaməsi" qəbul edilmişdir.

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Bakı Zirvə Görüşü "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda 2019-cu il 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək və 2019-2022-ci illər ərzində Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir.

Azərbaycan tamhüquqlu üzv olduğu regional beynəlxalq təşkilatlar çərçivəsində də fəallıq nümayiş etdirir və yeni əməkdaşlıq formalarının müəyyən edilməsi üçün təkliflərlə çıxış edir. Bu xüsusda, ATƏT, Avropa Şurası, İƏT, MDB, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, QDİƏT və başqaları qeyd oluna bilər.

**İkitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsi, enerji və nəqliyyat strategiyasının həyata keçirilməsi.** Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, ölkənin iqtisadi potensialının xaricdə təşviq olunması, qeyri-neft sektorunun şaxələndirilməsi, ixracın təşviqi və genişləndirilməsi, xarici sərmayələrin ölkəmizə cəlb edilməsi, tərəfdaş ölkələrə Azərbaycan sərmayələrinin yatırılmasının təşviqi, Azərbaycanın və xarici ölkələrin dövlət və işgüzar dairələrinin nümayəndələrinin səfərlərinin təşkili, iqtisadi əməkdaşlıq üzrə Azərbaycanın xarici dövlətlərlə birgə hökumətlərarası komissiya və işçi qruplarının iclaslarının keçirilməsi, ölkəmizdə istehsal olunan məhsul və xidmətlərin yeni bazarlara çıxarılması, eyni zamanda, xarici ölkələrdə tətbiq olunan müasir texnologiyaların ölkəmizə cəlb edilməsi ikitərəfli əməkdaşlıqda əsas istiqamətlərdir. Regional və beynəlxalq tərəfdaşlar ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın təşəbbüskarı olduğu və həyata keçirdiyi enerji və nəqliyyat layihələri regional əməkdaşlığa töhfə verib. Azərbaycan fəal şəkildə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin həyata keçirilməsində iştirak edir. Transxəzər beynəlxalq marşrutunun və Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi əhəmiyyətli layihələr sırasındadır. Çinin İpək Yolu İqtisadi Kəməri konsepsiyasının tam reallığa çevrilməsində Azərbaycan tranzit ölkə kimi müstəsna rol oynayır.




Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi
30.10.2017

Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu layihəsinin tamamlanması bütün region üçün nəqliyyat imkanlarını genişləndirəcək.

Azərbaycan irimiqyaslı enerji layihəsinin – "Cənub Qaz Dəhlizi" layihəsi enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. "Cənub Qaz Dəhlizi"nin vacib komponentləri olan "Şahdəniz-2", TANAP və TAP layihələrinin icrası istiqamətində Azərbaycan tərəfdaşlarla birlikdə davamlı siyasətini davam etdirir.

<u>**Xəzər dənizinin sülh və əməkdaşlıq məkanı kimi inkişaf etdirilməsi.**</u> Xəzər dənizi Xəzər regionu ölkələrinin xalqlarının iqtisadi inkişafı və rifahına, həmçinin dünya enerji təhlükəsizliyinin təmin olunmasına yönələn bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. “Xəzər dənizinin hüquqi statusu haqqında” Konvensiyanı 2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin Aktau şəhərində keçirilən V sammitində Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan prezidentləri imzalamışlar. Bu Konvensiya ilə dənizin suyu, dibi, təki, təbii resursları və onun üzərindəki hava məkanı da daxil olmaqla, Xəzər dənizinin istifadəsinə münasibətdə Xəzər dənizinin sahilində yerləşən dövlətlərin hüquq və öhdəlikləri müəyyən olunur və tənzimlənir.

Xəzər dənizində sabitliyin möhkəmləndirilməsi bütün tərəflərin maraqlarının nəzərə alınmasına, eləcə də bir-birilərinin təhlükəsizliyinə zərər vurmamasına, Xəzəryanı dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyinə hörmət göstərilməsi və bir-birilərinin daxili işlərinə qarışmamasına əsaslanır.

<u>**Sivilizasiyalararası dialoq və multikulturalizmin inkişafı.**</u> Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olub. Ölkəmiz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olub.




V Dünya Mədəniyyətlərarası Dialoq Forumu
Bakı. 2-3.05.2019

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Ölkəmizdə hər iki ildən bir Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Mütəmadi olaraq Azərbaycan Bakı Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edir.

Azərbaycan dinlərarası dialoq kimi vacib məsələyə həsr edilmiş Dünya Dini Liderlərinin Zirvə toplantısına 2016-cı ildə ev sahibliyi edib. Bu mövzu bu gün dünyanın gündəliyində duran ən mühüm məsələlərdəndir və Sivilizasiyalar Alyansının rolu artmaqdadır.

2008-ci ildən etibarən “Bakı Prosesi” mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş bu dialoq üçün geniş bir platformaya çevrilmişdir. Bu proses inkişaf edir və getdikcə daha çox dəstəklənir. O, qlobal təşəbbüsə çevrilir, həmrəylik, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqa öz töhfəsini verir.

2016-cı il Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizdə “Multikulturalizm ili” elan edilib. Nəticədə milli və beynəlxalq səviyyədə multikulturalizmin bəşəri ideallarını qoruyub saxlamaq və yaymaq tədbirlərini nəzərdə tutan xüsusi Fəaliyyət Planı hazırlanıb.

2016-cı il aprelin 25-27-də Azərbaycan BMT Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış" mövzusuna həsr olunmuş 7-ci Qlobal Forumuna ev sahibliyi edib. Bu mühüm tədbirə dövlət və hökumət başçıları, nazirlər, dövlət rəsmiləri, media və beynəlxalq təşkilatların nümayəndələri də daxil olmaqla, 147 ölkədən 4 mindən çox iştirakçı qatılıb.



BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu
Bakı. 22-25.04.2016

Son 10 ildə Bakıda 5 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 6 dəfə Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir.

**Humanitar diplomatiyanın davam etdirilməsi.**

Azərbaycan 1992-ci il 3 iyul tarixindən BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun üzvüdür. Azərbaycan YUNESKO ilə əlaqələri möhkəmləndirmək və Azərbaycan elmini, təhsilini və mədəniyyətini inkişaf etdirmək məqsədilə YUNESKO çərçivəsində qəbul edilmiş bir sıra konvensiyalara qoşulmuşdur.

Azərbaycanın YUNESKO əməkdaşlığı ilə bağlı gündəlik operativ iş Bakıda Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın Daimi Katibliyi və Parisdə Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gərgin fəaliyyəti sayəsində Azərbaycan-YUNESKO və Azərbaycan-İSESKO münasibətləri yüksək inkişaf səviyyəsinə çatmışdır.



YUNESKO-nun baş qərargahında
Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı
Paris. 18.05.2018

Bakı şəhəri artıq dünya miqyasında siyasi, mədəni, idman və biznes təyinatlı mötəbər tədbirlərin keçirildiyi məkan kimi tanınır. 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Bu yarışlar müxtəlif ölkələrin xalqlarının Azərbaycanı daha yaxından tanımasına və onunla yaxınlaşmasına və turizmin inkişafına öz töhfəsini verdi.

Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) vasitəsilə beynəlxalq inkişaf səylərində fəal rol oynayır. Yeni donor ölkə kimi, Azərbaycan inkişaf etməkdə olan ölkələrin üzləşdiyi humanitar və sosial-iqtisadi çağırışlara cavab verir.

Azərbaycan artıq dünyanın müxtəlif bölgələrində baş verən münaqişələr, silahlı qarşıdurmalar və təbii fəlakətlər nəticəsində kütləvi şəkildə yaşayış yerlərini dəyişməyə məcbur qalmış insanlara da yardım göstərir.

BMT-nin İqtisadi və Sosial Şurasının yeni seçilmiş üzvü kimi, Azərbaycan Şuraya üzvlüyü ərzində İnkişaf Hüququ Bəyannaməsinin reallaşdırılmasına kömək edir.

**<u>Azərbaycan diasporu ilə iş.</u>** Dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının müdafiəsi və onlara göstərilən konsul xidmətinin səmərəliliyinin və intensivliyinin artırılması, ümumilikdə isə bu istiqamətdə xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrinin inkişafına təkan verilməsinə yönələn fəaliyyətdir.

Xaricdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi, onların Azərbaycan Respublikasında olduqları müddət ərzində hüquqi vəziyyətlərini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi və soydaşlarımıza müvafiq imtiyazların tətbiq edilməsi imkanlarının araşdırılması istiqamətində fəaliyyət həyata keçirilir.




Dünya azərbaycanlılarının IV qurultayı
3-4.06.2016

Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli Fərmanından irəli gələn tapşırıqların icrası məqsədilə Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və digər müvafiq dövlət qurumlarının mütəxəssisləri tərəfindən birgə iş aparılır. Artıq "ASAN Viza"nın tətbiqinə başlanılmışdır.

Ölkə rəhbərliyinin həyata keçirdiyi mütərəqqi idarəetmə islahatlarının tərkib hissəsi olan "ASAN Viza" ölkəmizə turist axınının təşviq edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında çıxış edən Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin Azərbaycanda hər bir sahədə davam etdirildiyini, xarici siyasətimizin çox uğurlu, çox fəal olduğunu, Azərbaycanın beynəlxalq təşkilatlarda çox önəmli yer tutduğunu, mövqelərimizin möhkəmləndiyini və Azərbaycanın addımlarının bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələr verdiyini qeyd edərək, diaspor fəaliyyətinin gücləndirilməsi, diplomatik nümayəndəliklərlə əlaqələndirmənin artırılması və diasporumuzun təşkilatlanması ilə əlaqədar qarşıya konkret vəzifə və tapşırıqlar qoyub.

Azərbaycanın müstəqillik dövrünün xarici siyasəti milli maraqların beynəlxalq səviyyədə qorunması və həyata keçirilməsinə, dövlətin beynəlxalq mövqeyinin möhkəmlənməsinə xidmət edir.